# TARİX

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN GƏNCLƏRİ

**İ.X.ZEYNALOV**
***Bakı Dövlət Universiteti***

***«Bizim bugünkü gəncliyimiz sağlam düşüncəli gənclikdir, vətənpərvər gənclikdir, xalqını, millətini sevən gənclikdir... Gənclərimiz mükəmməl təhsil almalı, həyatı dərindən öyrənməli, dünyada gedən prosesləri bilməlidir. Lazımi fəaliyyət göstərib, öz xalqına, dövlətinə xidmət etməlidir».***

HEYDƏR ƏLİYEV

Ulu öndərimiz – Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi 34 illik zaman kəsiyində həmişə Azərbaycan gəncliyinə böyük diqqət və qayğı göstərmişdir. Müstəqillik illərində respublika əhalisinin bütün təbəqələri və sosial qrupları kimi gənclərin də ictimai-siyasi həyatında milli oyanış, milli özünüdərk prosesi daha qabarıq şəkildə özünü büruzə verməyə başladı. Hələ «Sovet imperiyasına qarşı mübarizənin, o cümlədən Dağlıq Qarabağ hadisələri və müstəqillik uğrunda mübarizə ilə bağlı təşəkkül tapmış xalq hərəkatının ön sıralarında gənclər getmişdir. 1988-ci ildə erməni ekstremistlərinin Azərbaycana qarşı başladıqları hərbi təcavüzü dəf etmək üçün ilk özünümüdafiə dəstələrinin yaradılmasında və fəaliyyət göstərməsində gənclərin böyük xidmətləri olmuşdur». Lakin bununla yanaşı 1991-1993-cü illərdə respublikada hökm sürən hərcmərclik, böhran illərində təşəkkül tapmış gənclər hərəkatının içərisində də siyasətləşmə, populizmə meyllər özünü göstərməyə başladı. Gənclərin çoxu müxtəlif siyasi mövqe tutmuş, öz mənafeyini hər şeydən üstün tutan siyasi təşkilatların və partiyaların təsiri altına düşdü. Bütün bunlar «Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünün qorunması, ölkədə hüquqi, demokratik dövlət quruculuğu prosesinin həyata keçirilməsi vəzifələri gənclərin ayrı-ayrı partiya və qurumlarının deyil, ümummilli dövlət mənafeləri əsasında səfərbər olması, vahid gənclər siyasətinin hazırlanıb həyata keçirilməsi zərurətini ortaya atdı». Ulu öndər qeyd edir ki, «Gəncliyin inkişafı, xalqın elmi-texniki, ziyalı potensialının yüksəlişi, tərəqqisi, sabahı deməkdir». Bu baxımdan da 1993-2008-ci illərdə Azərbaycanda gedən hüquqi, demokratik dövlət quruculuğu prosesində gənclərin yaxından iştirakı, rolu danılmazdır. Həmçinin, bu gün Azərbaycanın müstəqilliyini qorumaq, möhkəmləndirmək və daimi etmək üçün Azərbaycan gəncliyi böyük qüvvədir.

Azərbaycan gəncliyinə diqqət və qayğı hələ keçən əsrin 70-ci və 80-ci illərinin əvvələrində formalaşmışdır. Heydər Əliyevin xüsusi səyi ilə hələ o zaman Sovetlər Birliyinin 50-dən artıq iri şəhərinin 170 nüfuzlu

məktəbində respublikamızın xalq təsərrüfatı, elm, təhsil, səhiyyə və mədəniyyət, bütünlükdə 80-dək sahəni əhatə edən 150 ixtisas üzrə 15 mindən çox azərbaycanlı gəncin ali təhsil almasına, yüksəkixtisaslı mütəxəssis kimi hazırlanmasına imkan və şərait yaradılmışdır.

Azərbaycan gənclərinin I forumunda Heydər Əliyev demişdir: «Bütün bunlar hamısı o vaxtlar Azərbaycanın gəncliyi üçün yeni-yeni mütəxəssislər hazırlamaq məqsədi güdmüşdür. Bu işə biz hələ 70-ci illərdə başlamışdıq. Mən bu gün çox məmnuniyyət hissi ilə qeyd edirəm ki, bu şəxsən mənim təşəbbüsüm ilə olmuşdur. Mən hələ o vaxtdan ölkəmizin gəncliyini düşünürdüm».

Ulu öndərin qayğısı daima gənclərin həyatında, fəaliyyətində hiss olunmuşdur. Cənab Heydər Əliyevin təşəbbüsü ilə hələ 70-ci illərdə Abşeronda, Xəzər sahilində - Zaqulbada beynəlxalq «Gənclik» düşərgəsi tikilib istifadəyə verilmişdir. 70-ci illərdə SSRİ-nin aparıcı ali məktəblərində hərbi milli kadrların hazırlanması da ulu öndərin öz xalqı qarşısında misilsiz tarixi xidməti idi. Uzaqgörən, müdrik dövlət xadimi – Heydər Əliyevin xüsusi təşəbbüsü və himayəsilə 1972-ci ildən başlayaraq hər il 350-400 nəfər SSRİ-nin müxtəlif ali hərbi məktəblərinə göndərilirdi. Heydər Əliyevin uzaqgörənliyinin məntiqi nəticəsi idi ki, məhz 1972-ci ildə Bakıda onun təşəbbüsü ilə Cəmşid Naxçıvanski adına hərbi məktəb fəaliyyətə başladı. Onu da qeyd etmək lazımdır ki, 70-80-ci illərdə Azərbaycanda yaradılan, baza rolunu oynayan hərbi məktəblər, eləcə də respublikadan kənarda təhsil almış milli hərbi kadrlar hesabına müstəqil Azərbaycanda ordu quruculuğu və milli hərbi sistem formalaşır və günü-gündən möhkəmlənir. Digər tərəfdən Heydər Əliyevin səyi ilə milli kadrların inkişafı üçün yaradılmış imkanlar nəticəsində aparıcı ictimai-siyasi sahələrdə azərbaycanlı amilinin üstünlüyü və öncüllüyü, milli ruhun yüksəlişi təmin olunmuşdur.

Onu da qeyd edək ki, 1988-1993-cü illərdən Azərbaycanın ictimai-siyasi həyatında baş verən çaxnaşmalar, hakimiyyət uğrunda mübarizə, Dağlıq Qarabağdakı ağır vəziyyət, torpaqlarımızın iyirmi faizinin işğal olunması, bir miliyondan çox azərbaycanlının qaçqın və köçkün vəziyyətinə düşməsi gənclər arasında həyata sönük münasibət formalaşmasına zəmin yaratmış, onlarda ruh düşkünlüyünə səbəb olmuşdur.

Beləliklə, XX yüzilliyin sonunda dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikasında gənclərlə iş sahəsində yaranmış boşluq 1993-cü ilin iyununda Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra aradan qaldırılmış, problemlərin həlli sahəsində kompleks tədbirlər görülmüşdür.

Nəhayət, hakimiyyətdəki ən üst təbəqə sovetizmin xəstəliklərindən qurtarmağın lazım olduğunu dərk etdi. Anlaşıldı ki, idarəetməyə yeni gənclər gətirmək, hakimiyyəti yeni gənclərin hesabına möhkəmləndirmək lazımdır.

Ulu öndər çıxışlarında gənclərə böyük önəm verməklə bildirdi ki, ölkəmizin gələcəyi gənclərin əlindədir.

Heydər Əliyev 1993-cü il sentyabrın 22-də respublika gənclərinin bir qrupu ilə görüşündə bildirmişdir ki, sağlam ruhda böyümüş Azərbaycan gəncləri ölkəmizdə başlamış müstəqil, hüquqi, dünyəvi və demokratik dövlət quruculuğunda öndə getməlidirlər.

Ulu öndər Heydər Əliyev gənclərlə iş sahəsində dövlət siyasətinin müəyyənləşdirilməsini önə çəkərək, 1994-cü il iyulun 26-da Gənclər və

İdman Nazirliyinin yaradılması haqqında fərman imzaladı. Böyüməkdə olan gənc nəslin vətənə, torpağa, xalqa məhəbbət ruhunda tərbiyə olunması, gənclərin sosial-iqtisadi problemlərinin həlli, onların hərtərəfli inkişafı üçün zəruri olan şəraitin yaradılması, gənclərin qüvvə və bacarığından düzgün istifadə edilməsi yeni yaradılan nazirliyin əsas vəzifəsi kimi irəli sürüldü.

Heydər Əliyevin qayğısı və şəxsən köməyi ilə Gənclər, İdman və Turizm Nazirliyinin yaradılması, gənclərin iki mühüm respublika forumunun keçirilməsi, dövlət gənclər siyasətinin həyata keçirilməsi üçün zəruri olan normativ-hüquqi bazanın yaradılması, dövlət proqramlarının qəbul edilməsi, Azərbaycan Respublikasında gənclərlə işə xüsusi əhəmiyyət verildiyini göstərir. 1996-cı ildən indiyədək gənclərlə bağlı ondan artıq qanunvericilik aktları qəbul olunmuşdur.

Respublika gənclərinin təşkilatlanmasında, onların ölkənin siyasi, sosial-iqtisadi və mədəni həyatında gedən geniş quruculuq işlərinə cəlb olunmasındakı addım, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin fərmanına əsasən 1996-cı il fevralın 2-də keçirilmiş Müstəqil Azərbaycan Gənclərinin I forumunun çağırılması oldu. Forumda respublika gənclərinin 2 min nəfərdən çox nümayəndəsi iştirak edirdi. Ümummilli lider Heydər Əliyevin forumda proqram xarakterli çıxışında bir daha Azərbaycan gənclərinin müstəqil dövlət quruculuğunun bütün sahələrində gənclərin səfərbərliyə alınması, onların vəzifələrinin düzgün müəyyənləşdirilməsi önə çəkildi.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1999-cu il iyunun 29-da imzaladığı «Dövlət Gənclər Siyasəti haqqında» fərmanla təsdiq olunmuş geniş tədbirlər planında gənclər siyasətinin bütün istiqamətləri, gənclərin bütün təbəqələrinin problemlərinin həlli üzrə konkret tədbirlər öz əksini tapmışdır.

Nəhayət, Azərbaycan gənclərinin 1999-cu il martın 2-3-də keçirilmiş II forumunda I forumdan keçən zaman kəsiyində gənclərin fəaliyyəti ilə bağlı görülmüş işlərə yekun vuruldu. Həmçinin sonrakı illər üçün müstəqil dövlət quruculuğu yolunda gənclərin üzərinə düşən vəzifələr müəyyənləşdirildi, respublikanın ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında onların daha da fəal iştirakını təmin etmək üçün tədbirlər görülməsi, onların problemlərinin həll edilməsi üçün aidiyyatlı orqanlara tövsiyələr verildi.

Həmçinin müstəqillik dövründə dövlət gənclər siyasətinin tənzimlənməsini təmin edən normativ-hüquqi bazanın yaradılması və təkmilləşdirilməsi istiqamətində də real işlər görüldü. Gənclərin hərtərəfli inkişafını və fəaliyyətini təmin etmək məqsədilə, onların problemlərinin həlli və hüquqlarının müdafiəsi sahəsində daha təsirli tədbirlər görmək üçün 2000-ci ilin sonunda «Gənclər siyasəti haqqında» Azərbaycan Respublikası Qanununun layihəsini hazırlamıq üçün işçi qrupu yaradılmış, hazırlanmış Qanun layihəsi 2001-ci ilin iyun ayında Milli Məclisin müzakirəsinə çıxarılmışdır. Milli Məclisin 2001-ci il dekabrın 14-də və 18-də keçirilmiş iclasında layihə ikinci oxunuşda müzakirəyə çıxarılmış və qəbul olunmuşdur. «Gənclər siyasəti haqqında» Qanun Prezident Heydər Əliyevin 6 may 2002-ci il tarixli fərmanı ilə qüvvəyə minmişdir. 14 maddədən ibarət olan bu Qanun respublikada gənclər siyasətinin məqsədlərini, istiqamətlərini, təşkilati-hüquqi əsaslarını müəyyən etməklə, həm də bu sahədə yaranan münasibətləri tənzimləyir. Qeyd edək

ki, sonrakı dövrdə gənclərimiz «Gənclər siyasəti haqqında» Qanundan irəli gələn vəzifələrin yerinə yetirilməsində daha fəal olmuşlar, onlar öz üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirmişlər.

Belə ki, 1993-2007-ci illərdə qəbul olunmuş dövlət proqramlarının əksəriyyətində, o cümlədən «Regionların sosial-iqtisadi inkişafının Dövlət Proqramı (2004-2008-ci illər)»nda gənclərlə bağlı vəzifələr və tədbirlər müəyyənləşdirilmiş, «Dövlət Gənclər Siyasəti»nə aid geniş tədbirlər planı 1999-cu il iyulun 29-da imzalanmış fərmanla təsdiq edilmiş və burada Azərbaycanda gənclər siyasətinin həyata keçirilməsi sahəsində mövcud olan problemlər və onların həlli yolları öz əksini tapmışdır.

Bu tədbirlərin həyata keçirilməsində Gənclər, İdman və Turizm Nazirliyinin rolu da az olmamışdır. Həmçinin Dövlət gənclər siyasətini həyata keçirilməsi sahəsində görülmüş işləri əks etdirən «Azərbaycan Respublikasında Dövlət Gənclər Siyasəti» informasiya bülleteninin 5 cildi nəşr olunmuşdur. Hazırda Respublikada 80-dən çox gənclər təşkilatı fəaliyyət göstərir. Onların əksəriyyəti Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şürasının üzvləridir. Milli Şura 2000-ci ilin aprelində ən nüfuzlu beynəlxalq, qeyri-hökumət təşkilatı olan Avropa Gənclər Forumuna tamhüquqlu üzv seçilmişlər.

Heydər Əliyevin çox böyük qayğısı və köməyi ilə Azərbaycan gəncliyinin beynəlxalq gənclər hərəkatına inteqrasiya olunması sahəsində də çox işlər görülmüşdür. Respublikanın gənclər təşkilatları BMT-nin, YUNESKO-nun, Avropa Şurasının, Avropa Birliyinin və s. beynəlxalq qurumların gənclər proqramlarına qoşulur, birgə layihələrdə iştirak edir, MDB və digər ölkələrin gəncləri ilə müntəzəm tədbirlər keçirirlər. Respublikamızda gənclər öz fəaliyyətlərini müxtəlif hökumət və qeyri-hökumət gənclər təşkilatlarında uğurla genişləndirirlər. Respublika gəncləri dünyada qəbul olunmuş sivil və intellektual forma və vasitələrdən bəhrələnərək ölkəmizdə təşəkkül tapmış demokratik şəraitdən istifadə edərək, öz qarşılarında qoyulan ən müxtəlif problemlərin həllinə çalışır, respublikamızın sosial-iqtisadi və mədəni inkişafı yolunda öz qüvvələrini əsirgəmirlər.

Bu gün respublikanın bütün regionlarında 300-dək uşaq və gənclər idman mərkəzləri yaradılmışdır. Ulu öndər Heydər Əliyev bu sahəyə xüsusi önəm verərək bildirir ki, «Ölkəmizdə bədən tərbiyəsi və idman ümumxalq hərəkatına çevrilmişdir. Qəhrəmanlıq yüksək fiziki keyfiyyətlər və iradə tələb edir. Bunlarsız insan qəhrəman ola bilməz. Bu keyfiyyətlərin olması, hər bir gəncdə cəmləşməsi də onun fiziki cəhətdən nə dərəcədə yüksək zirvələrə çatdığını göstərir». Ulu öndər həm də dönədönə bildirirdi ki, «... bizim vəzifəmiz, dövlət orqanlarının vəzifəsi, hakimiyyət orqanlarının vəzifəsi gənclərə diqqəti artırmaq, gənclər probleminin həll olunması ilə bundan sonra da daha da yaxından məşğul olmaq və irəliyə sürülən təkliflərin həyata keçirilməsi üçün çalışmaq, lazımi tədbirlər görməkdən ibarətdir».

Gənclər isə Azərbaycan dövlətinin daxili siyasətinin mühüm tərkib hissəsi olaraq qalır. Bu siyasət bu gün də sağlam gəncliyin dostu İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Belə ki, İlham Əliyevin «Azərbaycan Gəncliyi Dövlət Proqramı (2005-2009-cu illər)» üzrə həyata keçiriləcək tədbirlər haqqında 2005-ci il avqustun 30-da imzaladığı sərəncam bir daha Azərbaycan Gəncliyi ilə bağlı Ulu öndər Heydər Əliyev siyasətinin dönmədən, uğurla davam etdirilməsinə bariz nümunədir. Qarşıdan

prezident seçkiləri gəlir. Biz gənclərin də işinin əsasını 2008-ci ildə keçiriləcək prezident seçkiləri təşkil edir. Biz gənclər inanırıq ki, Azərbaycan gəncliyi öz seçimini düzgün edərək, ona bütün sahələrdə arxa olan, uğurlar gətirən, gənclərin həm də yaxın dostu olan ölkə rəhbəri İlham Əliyevin yenidən ölkə başçısı seçilməsi üçün öz sözlərini deyəcəklər.

Bu gün Azərbaycan gənclərinin ən sağlam, fəal hissəsi 120-dən çox müxtəlif gənclər təşkilatlarının üzvü olmaqla, geniş fəaliyyət göstərirlər. O, cümlədən Azərbaycan gəncləri Azərbaycan Skautlar Assosiasiyasi, Ümumdünya Skaut Hərəkatı Təşkilatına, Gənc Hüquqşünaslar Birliyi, Gənc Hüquqşünasların Beynəlxalq Assosiasiyasına, Azərbaycan Demokratik Tələbə Gənclər hərəkatı Avropa Demokratik Tələbə İttifaqına, Dünya Gənc Türk Yazarlar Birliyi Dünya Türk Gənclər Birliyinə və s. üzv daxil edilmişlər.

## QEYDLƏR


1. Əliyev Heydər. «Gənclər, inkişaf və sülh» mövzusunda 3 sentyabr 1981-ci ildə Bakıda keçirilmiş Beynəlxalq Gənclər konfransında nitq. Azərnəşr, Bakı: 1981.
2. Əliyev Heydər. Azərbaycan gənclərinin I forumunda çıxışı. «Azərbaycanın gələcəyi etibarlı əllərdədir». Azərnəşr, Bakı: 1996.
3. Əliyev İlham. Azərbaycan gənclərinin IV forumunda nitq. «Azərbaycan» qəzeti, 2005-ci il 15 oktyabr.
4. Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin Cari Arxivi (ARGİNCA).
5. Avropa Gənclər Forumunun üzvlər şurasının iclası. «Azərbaycan» qəzeti, 2007, 28 aprel.
6. Azərbaycan Gəncliyi Dövlət Proqramı 2005-2009-cu illər. «Azərbaycan» qəzeti, 2005, 1 sentyabr.
7. Azərbaycan Prezidentinin gənclərlə görüşü. Bakı: 1997.
8. Dövlət Gənclər Siyasəti haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı. «Azərbaycan» qəzeti, 1999, 30 iyul.
9. Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı. «Azərbaycan» qəzeti, 1994, 27 iyun.
10. Azərbaycan gəncliyi - Azərbaycanın gələcəyi. Azərnəşr, Bakı: 2003.
11. Azərbaycan Respublikasında Dövlət Gənclər siyasəti. İnformasiya bülleteni. Elm, № 4, Bakı: 2000.
12. Azərbaycanın gələcəyi etibarlı əllərdədir. Bakı: 1998.
13. YAP Gənclər Birliyinin II konfransı. «Azərbaycan» qəzeti, 2005, 3 iyun.
14. Cəfərov Həmzə. Azərbaycanda Gənclər Hərəkatı yeni inkişaf mərhələsində. Bakı: 2007.


## ГЕЙДАР АЛИЕВ И МОЛОДЕЖЬ АЗЕРБАЙДЖАНА


И.Х.ЗЕЙНАЛОВ


## РЕЗЮМЕ


В научной статье исследуются активное участие азербайджанской молодежи в политической, социально-экономической и культурной жизни, в строительстве нового общества в период независимости. В статье одним из главных вопросов, которому уделяется внимание, это высказывание Гейдара Алиева связанные с молодежью, подписанные им указы, а также обобщаются мероприятия по претворению в жизнь этих указов.

В статье важное место занимают принятые программы, связанные с молодежью в период 1993-2007 годов, проводится анализ широких мероприятий связанных I-IV Форумами республиканской молодежи и «Государственной молодежной программой», вхождением молодежи республики в международные организации, роли молодежи в негосударственных организациях и др. вопросы.

В статье также уделяется большое внимание государственной политике по работе с молодежью, а также роли Гейдара Алиева по определению задач поставленных перед молодежью, созданию условий для претворения в жизнь этих задач.

## HEYDAR ALIYEV AND AZERBAIJAN YOUTH

I.X.ZEYNALOV

### SUMMARY

The article investigates active participation of Azerbaijan Youth in the political, social, economical and cultural life of the country as ell as the establishment of the new society since Azerbaijan regained its independence.

The article summarizes the measures taken by Heydar Aliyev dealing with the Youth as well as the issued decrees and items of these decrees.

The article illustrates such measures about Youth as adopted programs in 1993-2007, the I-IV Forums of the Youth, the interpretation of wide-range measures on "State Youth Policy", the membership of the youth into international organizations, the role of the youth in Non-Governmental Organizations etc.

The article also studies H.Aliyev's state policy dealing with the Youth as well as his great role in identifying the duties and responsibilities of the Youth and enabling the implementation of these duties and responsibilities.